# ABŞ Əmək Nazirliyi

# 2023-ci İldə Uşaq Əməyinin Ən Pis Formaları Barəsində Məlumat

## Azərbaycan

Azərbaycan 2023-ci ildə uşaq əməyinin ən pis formalarını aradan götürmək yolundakı səylərdə minimal inkişaf qeyd edib. Dövlət Əmək Müfəttişliyi Xidməti əmək müfəttişlərinin sayını 2022-ci ildəki 182-dən 240-a artırıb. Daxili İşlər Nazirliyi, həmçinin 78 hüquq-mühafizə orqanının 850-dən çox əməkdaşına uşaq əməyi və insan alveri ilə bağlı qanunvericilik üzrə təlimlər keçirib. Bundan əlavə, Ailə, Uşaq və Qadın Problemləri üzrə Dövlət Komitəsi tərəfindən uşaq əməyinin və uşaqların cinsi istismarının qarşısının alınmasına dair məlumat kitabçası nəşr edilib və 1000-dən çox iştirakçı üçün bu mövzuda maarifləndirici tədbirlər keçirilib. Uşaq əməyinin aradan götürülməsi ilə bağlı yeni təşəbbüslərə baxmayaraq, bütün iş yerlərində əməyin yoxlanılmasına qoyulan moratoriumu davam etdirən qanuna görə, Azərbaycan yalnız minimal inkişaf əldə etmiş kimi qiymətləndirilir. Müfəttişlərin şikayətləri masalarında nəzərdən keçirə bilmələrinə baxmayaraq, proaktiv və ya yerində təftiş mexanizmlərinin olmaması iş yerlərində uşaq əməyi qanunlarının potensial pozulmasının müəyyənləşdirilməməsinə yol aça bilər. Buna əlavə, Azərbaycanın öncəlikli məhsul sistemi fermer və yerli məmurların uşaq əməyi də daxil olmaqla istismarçı əmək tətbiqatına qayıtmaları riskinə yol açır və bəzi hallarda regional və yerli rəsmi xadimlər öncəlikli məhsullardan biri və ya bir neçəsi üçün müəyyən edilmiş istehsal hədəflərinə çatmaq məqsədilə kifayət qədər işçi qüvvəsini səfərbər etməyə məcbur buraxılır. Bundan əlavə, bəzi hallarda polis dilənməyə və ya küçə işlərinə məcbur edilən uşaqlara ailə problemi kimi yanaşır ki, bu da uşaq əməyi ilə bağlı işlərin cinayət təhqiqatına və təqibə lazımi qaydada göndərilməməsinə səbəb olur.

Aşağıda təklif olunan hökumət tədbirləri USDOL-un Azərbaycanın uşaq əməyinin ən pis formalarının aradan qaldırılması ilə bağlı beynəlxalq öhdəliklərinin yerinə yetirilməsi zamanı müəyyən etdiyi boşluqları aradan qaldıracaq.

| Sahə | Məsləhət Bilinən Fəaliyyətlər |
|---|---|
| Hüquqi İş Çərçivəsi | Uşaqlardan fahişə kimi istifadə edilməsini və uşaqların pornoqrafiya istehsalatı və tamaşaları üçün istifadə olunmasını, cəlb edilmələrini və bu işlər üçün verilmələrini kriminal cinayət kimi qadağan edin. |
| | Pulsuz əsas təhsili nəzərdə tutan qanunların vətəndaş olmayanlar da daxil, Azərbaycandakı bütün uşaqlara şamil olmasını təmin edin. |
| Tətbiqat | Uşaqların prioritet məhsul istehsalında istifadə edilməməsini təmin edin və yerli hökumət rəsmilərinin prioritet məhsul istehsalına kömək etmək üçün uşaqların işə cəlb edilməsi ilə məşğul olmamasını təmin edin. |
| | Şikayətlərə cavab vermək də daxil olmaqla müntəzəm, hədəfli və qabaqca xəbər verilməyən əmək yoxlamalarına yenidən başlayaraq uşaq əməyi qanunlarının tətbiq edilməsindən əmin olun. |

| Sahə | Məsləhət Bilinən Fəaliyyətlər |
| --- | --- |
| | Təxminən 5,3 milyon işçinin işçi qüvvəsinin lazımi səviyyədə əhatə olunmasını təmin etmək üçün əmək müfəttişlərinin sayını 240-dan 265-ə qaldırın. |
| | Əmək müfəttişliyinin fəaliyyəti, o cümlədən maliyyələşdirmə səviyyələri haqqında məlumatları dərc edin. |
| | Hüquq mühafizə orqanlarının uşaq əməyi təmin etdiyini müəyyənləşdirdiyi uşaqları ictimai xidmət mərkəzlərinə ya da digər münasib xidmət yerlərinə yollamasını, beləliklə onların təkrar uşaq əməyinə qayıtmamalarının təmin olunmasını təminat altına alın. |
| | Hüquq mühafizə işçilərinin Bakı xaricində uşaq əməyi ilə bağlı istintaqlarını artırın. |
| | QHT-lər tərəfindən göndərilənlər daxil olmaqla dilənçilik eləyən uşaqları zorakı əmək göstəriciləri cəhətdən yoxlayın və uyğun hallarda, uşaqları dilənməyə məcbur buraxmağı kriminal cinayət kimi istintaq və təqib edin. |
| | Əhalinin həssas təbəqələri, o cümlədən uşaqlar arasında insan alverinin potensial qurbanlarını müəyyən edərkən hüquq-mühafizə orqanları, immiqrasiya və sosial xidmətlər tərəfindən insan alveri göstəricilərindən ardıcıl istifadəni təmin edin. |
| Koordinasiya | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Daxili İşlər Nazirliyi arasında uşaq əməyi ilə bağlı potensial cinayətlərə qarşı mübarizədə əlaqələndirmə və yönləndirmə işlərini artırın. |
| | Bütün tənzimləyici və əlaqələndirici qurumların, o cümlədən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və yetkinlik yaşına çatmayanların işləri və yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi üzrə milli və yerli komissiyaların müxtəlif qurumlar da daxil olmaqla, nəzərdə tutulan səlahiyyətlərini bütün hökumət səviyyəsində həyata keçirmək imkanlarına malik olmasını təmin edin. |
| Hökumət Siyasəti | Kəndtəsərrüfatındakı təhlükəli işlər kimi uşaq əməyinin ən pis formalarının hamsını əhatə edən bir siyasət qəbul edin. |
| | Kəndtəsərrüfatında uşaq əməyinə mane olunması məqsədilə, öncəlikli məhsullara istehsal hədəfi qoyan siyasəti dəyişin. |
| Sosial Proqramlar | Siyasət və proqramlar üçün məlumat təmin etmək məqsədilə uşaq əməyinin həcmi və təbiəti barədə məlumat yığın və nəşr edin. |
| | Əlilliyi olan uşaqların təhsil almaq imkanını təmin etmək üçün müəllimləri inklüziv təhsil üzrə hazırlayın, fiziki infrastrukturun əlçatanlığını yaxşılaşdırın və əlilliyi olan uşaqları ehtiyaclarına uyğunlaşdırılmış tədris materialları ilə təmin etməyə şərait yaradın. |
| | Kənd yerlərindəki uşaqlar və qaraçı uşaqları da daxil olmaqla, bütün uşaqların təhsilə bərabər çıxışının olmasını təmin edin. |
| | Sənədsiz uşaqların təhsilə yiyələnməsinə imkan vermək üçün onları sənədlə təmin edin. |
| | Sığınacaq yerlərinin insan alveri qurbanlarına adekvat xidmət göstərmələrinə imkan yaratmaq üçün hökumətin QHT-lər tərəfindən idarə olunan sığınacaq yerlərini kifayət qədər və ardıcıl maliyyələşdirməsini təmin edin. |